AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 84

Bakı şəhəri «04» oktyabr 2012-ci il

**Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin rayon şöbələrinin kadr təminatı haqqında"**

Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin rayon şöbələrinin işinin gücləndirilməsi və yaranmış kadr çatışmazlığının aradan qaldırılması məqsədilə

**ƏMR EDİRƏM:**

1. Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin rayon şöbələrinin vakant həkim-patoloqoanatom və məhkəmə-tibbi ekspertiza üzrə həkim vəzifəsinə "müalicə işi" fakültəsini bitirmiş, "həkim-laborant" vəzifəsinə isə "müalicə işi" və "tibbi profilaktika" fakültələrini bitirmiş və ən azı tibb ixtisası üzrə beş il stajı olan həkimlərin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyində 3 aylıq hazırlıq keçdikdən sonra müvafiq qaydalara əsasən işə götürülməsinə icazə verilsin.

2. Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Baş direktoru Şakir Musayevə tapşırılsın:

2.1. Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin rayon şöbələrində işləmək arzusunda olan həkimlər üçün peşə hazırlığı məqsədilə ixtisaslar üzrə təlimlərin keçirilməsi təmin edilsin.

2.2. hazırlıq keçmiş həkimlərin işə qəbulu Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 01 dekabr 2005-ci il tarixli 143 nömrəli əmrinə uyğun olaraq həyata keçirilsin.

3. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K. Mehdiyevaya tapşırılsın ki, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin rayon şöbələrində vakant olan yerlərə qəbul olunmuş həkimlər haqqında məlumatların "Tibb kadrların vahid registri"ndə təhlili aparılsın və onlar tutduğu vəzifəyə uyğun ixtisas üzrə sertifikasiyaya cəlb edilsin.

4. Əmrin icrasına nəzarət Aparatın rəhbəri Z. Mustafayevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**